AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NƏSİMİ adına DİLÇİLİK İNSTİTUTU

Əlyazması hüququnda

ELÇİN ƏLİ oğlu İBRAHİMOV

TÜRKLƏRDƏ ORTAQ İMLA VƏ ƏLİFBA PROBLEMLƏRİ

5710.01 - Türk dilləri

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

A V T O R E F E R A T I

BAKI – 2017

Dissertasiya işi Azərbaycan MEA Nəsimi adına Dilçilik İnstitutunun Türk dilləri şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: **Məhəbbət Mirzəxan qızı Mirzəliyeva**
filologiya üzrə elmlər doktoru

Rəsmi opponentlər: **Tünzalə Lətif qızı Baxşıyeva**
filologiya üzrə elmlər doktoru

Kamil Kamal oğlu Bəşirov
filologiya üzrə elmlər doktoru

Aparıcı təşkilat: Bakı Dövlət Universitetinin
Türkologiya kafedrası

Müdafiə "_*04*_" __*iyul*__ 2017-ci il saat " 14:00 " -da Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən Dissertasiya Şurasının D.01.141 iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti 115, V mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat " __*03*__ " ___*iyun*_____ 2017-ci ildə göndərilmişdir.

D.01.141 Dissertasiya Şurasının
elmi katibi, filologiya üzrə fəlsəfə
doktoru, dosent **S.Y.Məmmədova**

İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Mövzunun aktuallığı. Tarixən çox az xalqın öz əlifbası mövcud olmuşdur. Əlifbası olmayan həmin xalqlar mədəni inkişafın müəyyən dövrlərində o zamankı mövcud əlifbalar əsasında öz əlifbalarını yaratmışlar.

Türkdilli xalqlar arasında əlifba islahatları istiqamətində görülən işlər 20-ci yüzilliyin başlanğıcından günümüzə qədər davam etməkdədir. 1938-40-cı illərdə SSRİ türk xalqlarını ayırmaq üçün onların əlifbalarında dəyişikliklər edərək bir-birindən uzaqlaşdırmışdı.

1991-ci ildə əldə edilmiş müstəqillik və azadlıq latın əlifbasını bərpa etmək zərurətini ortaya çıxardı. Bu zərurət zamanın tələbindən irəli gəlirdi. Müstəqilliyin ilkin mərhələlərində əlifba məsələsi respublikada çox geniş müzakirə obyekti olmuşdur. Postsovet məkanında türkdilli xalqlar içərisində ilk olaraq Azərbaycan dünya yazı sivilizasiyasına qoşulmaq üçün latın qrafikalı əlifbanın tətbiqini zəruri hesab etdi.

Keçirilən konfranslarda türkdilli xalqlar arasında vahid əlifbanın, ortaq ünsiyyət dilinin yaradılması mövzuları hər zaman müzakirə obyekti olmuşdur. Bu istiqamətdə görüləcək ən əhəmiyyətli iş bütün türkdilli xalqların ortaq bir əlifbaya keçidini və imla problemlərini həllini təmin etməkdir. Lakin prosesin reallaşması üçün ilk öncə kiril əlifbasından istifadə edən bəzi türkdilli respublikaların qısa zaman ərzində latın əlifbasına keçidi gerçəkləşməlidir. Belə ki, latın qrafikasına keçid prosesindəki mövcud ləngimə ortaq ünsiyyət dilinə gedən yolda, bəlkə də, ən böyük problemlərdəndir.

Ortaq türk dilinə gedən yolda ortaq əlifba yaradılması mütləqdir. Ortaq əlifba olmadan vahid ünsiyyət dilini yaratmaq mümkün deyildir. Ortaq əlifba isə latın qrafikasına əsaslanmalıdır. Hal-hazırda texnologiya əsri olduğu üçün bütün kompüter və texniki əlaqə vasitələri də latın əlifbası əsasında fəaliyyət göstərir. Yaradılacaq yeni ortaq latın əlifbasında türk dillərindəki ortaq səslər üçün ortaq işarələrdən istifadə edilməlidir. Həmçinin bu latın əlifbası mümkün qədər praktik və asan olmalıdır. Ortaq əlifba üçün bütün türk dillərindəki ortaq səslər və elementlər nəzərə alınmalıdır.

Türklər arasında ortaq əlifba və imla problemləri bu gün türkologiya elmi üçün çox böyük əhəmiyyət və aktuallıq kəsb edir. Bugünədək istər Azərbaycanda, istərsə də türk dünyasında türklər üçün ortaq ünsiyyət dili ilə bağlı bir sıra araşdırmalar aparılsa da, ortaq ünsiyyət dilinə gedən yolda əlifba və imla problemlərinə heç vaxt sistematik yanaşma mövcud

olmamışdır. Lakin ortaq mədəni birliyin təmin edilməsindəki ən böyük şərt olan ortaq dilin yaradılması üçün əvvəlcə vahid əlifba və imla qaydaları hazırlanmalıdır.

Türkdilli ölkələr arasında qarşılıqlı anlaşmanı təmin etmək, inteqrasiya proseslərini sürətləndirmək və elmi tədqiqatları daha geniş şəkildə əlaqələndirmək üçün ortaq əlifbanın tətbiqi vacibdir. Türkdilli xalqlar arasında ortaq ünsiyyət dilinin formalaşdırılması hal-hazırda türkologiya elminin qarşısında duran ən aktual problemlərdəndir.

Ortaq əlifbaya sahib olmadan, imla məsələlərindəki çatışmazlıqları həll etmədən isə bu sahədə konkret nəticələr əldə etmək mümkün deyildir. Bu mənada, türklərdə əlifba və imla məsələlərində olan problemləri tədqiq etmək, bu problemlərin həlli yollarını müəyyənləşdirmək hər zaman öz aktuallığını saxlamaqdadır.

Tədqiqatın obyekti. Dissertasiyanın obyekti müasir türk dillərinin əlifbaları və imla qaydalarıdır.

Tədqiqatın predmeti. Dissertasiyanın predmetini türk ədəbi dilləri üçün ortaq əlifbanın və ümumi imla qaydalarının vücuda gətirilməsini təmin edən yolların, üsulların müqayisəli diaxron və sinxron araşdırılması təşkil edir.

Tədqiqatın məqsəd və vəzifələri. İşin əsas məqsədi türklər arasında ortaq ünsiyyət dilini formalaşdırmaq üçün əlifba və imla problemlərini həll etməkdən ibarətdir. Məhz bu baxımdan aşağıdakı vəzifələrin yerinə yetirilməsi məqsədəuyğun hesab edilmişdir:

– Türk xalqlarının ortaq və ümumi əlifbaya keçməsi yollarını müəyyənləşdirmək;

– Yaradılacaq yeni əlifbada türk dillərindəki ortaq səslər üçün istifadə ediləcək ortaq hərfləri müəyyənləşdirmək;

– Ortaq ünsiyyət dili üçün imla məsələlərini həll etmək;

Tədqiqatın elmi yeniliyi. Dissertasiyada ilk dəfə olaraq türk xalqlarının əlifba və imla məsələləri kompleks şəkildə müqayisəli təhlil edilmiş, bu sahədə mövcud problemlərin həlli yolları göstərilmişdir. Bununla yanaşı, türk xalqları arasında ortaq ünsiyyət dilinin yaranmasında əlifba və imla məsələlərinə ümumtürkoloji kontekstdə yanaşılmışdır.

Türk xalqları, məlum olduğu kimi, qədim tarixə və geniş coğrafiyaya malikdir. Bu da zaman keçdikcə onların dilləri, yazı sistemi və imlasında fərqliliklərin olmasına gətirib çıxarmışdır. Tədqiqat işində türk xalqlarının keçdiyi tarixi dövrlər nəzərə alınaraq əlifbaları da tarixi aspektdə incələnmiş, istifadə etdikləri əlifbalar haqqında müfəssəl məlumat verilmişdir. Tədqiqatda bu xalqların daha sonrakı dövrlərdə latın əlifbasına

keçid mübarizəsi geniş şəkildə işıqlandırılmış imla məsələləri ilk dəfə olaraq kompleks şəkildə tədqiqata cəlb edilmişdir. Burada oğuz, qıpçaq, qarluq qruplarına daxil olan türk dillərinin əlifbaları və imlaları müqayisəli şəkildə tədqiqata cəlb olunmuşdur.

Türklər arasında ortaq ünsiyyət dilinin yaradılması ideyası ilə əlaqədar, əlifba və imla məsələlərindən ümumtürkoloji kontekstdə bəhs edilmişdir. Həmçinin türklərin tarixən istifadə etdikləri əlifbalar haqqında danışılmış və onların xüsusiyyətləri barədə geniş məlumat verilmişdir. Eləcə də, türkologiyada ilk dəfə olaraq türklərin istifadə etdikləri müxtəlif əlifba sistemləri müqayisə edilmiş, bu əlifbalar ayrı-ayrılıqda cədvəllər şəklində dissertasiyaya əlavə edilmişdir.

Tədqiqatın nəzəri və praktik əhəmiyyəti. Mövzuya Azərbaycan türkologiya elmində ilk dəfə müraciət olunduğundan tədqiqatın elmi nəticələrindən bu istiqamətdə aparılacaq gələcək elmi araşdırmalarda istifadə oluna bilər. Türklərdə ortaq əlifba və imla problemlərinin araşdırılması və konkret nəticə əldə olunması – gələcəkdə türklər arasında ortaq ünsiyyət dilinin formalaşdırılmasında çox böyük əhəmiyyət kəsb edir.

Dissertasiyanın müddəa və nəticələrindən türkologiyanın problemlərinin dil nəzəriyyələri konteksində, xüsusi kurs və seminarlarda istifadə etmək olar.

Tədqiqatın metodu. Dissertasiya işinin yerinə yetirilməsi zamanı təsviri, müqayisəli və tarixi-müqayisəli metodlardan istifadə edilmişdir.

Tədqiqatın mənbələri. Türkoloji dilçiliyə dair qrafika və orfoqrafiya, yazı sistemləri, əlifba, imla məsələlərinə həsr olunmuş arxiv və internet materialları, elmi jurnallar və s.-dir.

Müdafiəyə çıxarılan əsas müddəalar. Tədqiqat işinin nəticəsi kimi müdafiəyə təqdim olunan müddəalar aşağıdakılardır:

– XIX əsrin sonlarından türklərin: “Dildə, fikirdə, əməldə birlik” şüarı altında birləşmə ideyasının əsas şaxəsi olan ortaq dil, o cümlədən onun tərkib hissəsi olan ortaq əlifba və imla məsələsi indiyədək sistemli, fundamental elmi tədqiqata cəlb edilməmişdir.

– Türk xalqları tarix boyu çoxsaylı əlifba dəyişikliklərinə məruz qaldığından hər yeni əlifba sistemi onları öz əcdadından və onun yaratdığı yazılı mədəniyyətdən tədricən uzaqlaşdırmışdır.

– Türk xalqlarının XIX əsrdən başlayan əlifba mücadiləsinin fərqli məcralarda davam etməsi, bu mücadiləni aparan ziyalılar arasında vahid fikrin olmaması türk dillərinin fonetik sistemini əhatə edən əlifbanın tərtibinə maneə yaratmışdır.

– Müstəqil türk dövlətlərində əlifba və imla məsələlərində vahid dövlət proqramlarının olmaması, eyni zamanda qohum türk dillərinin deyil, fərqli genealoji və tipoloji xüsusiyyətlərə malik dillərin nümunə kimi qəbul edilərək onlar əsasında əlifba tərtib etmək ideyası bu prosesi daha da lən-gidir. Bu baxımdan Azərbaycan dövlətinin əzmkarlıq nümayiş etdirərək qısa müddətdə latın əlifbasına keçidi təmin etməsi təqdirəlayiqdir.

– Türkdilli xalqların ortaq ünsiyyət dil məsələsinin həlli yolundakı ilk addım – ortaq əlifba sisteminin tətbiqidir. Tərtib olunacaq əlifbalar süni xarakter daşımamalı və bütün türk dillərinin fonetik quruluşunu özündə əks etdirməlidir.

– Türk dillərində imla məsələləri qarışıq xarakter daşıyır və ciddi tənzimləməyə ehtiyacı vardır.

– İmla qaydalarının müəyyənləşdirilməsində tarixi ənənəvi prinsiplə morfoloji-fonetik prinsip arasında balans gözlənilməli, purizmə və dilə yad olan "yeniliklərə" meyil edilməməli, dialekt xüsusiyyətləri və fərqli tələffüz şəkilləri ədəbi dilin imla qaydalarına tətbiq olunmamalıdır.

İşin aprobasiyası. Dissertasiya AMEA-nın Dilçilik İnstitutunun Türk dilləri şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas məzmunu Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi məcmuələrdə nəşr olunmuş məqalələrdə, eləcə də beynəlxalq simpozium və konfranslardakı məruzələrdə öz əksini tapmışdır. Çap olunmuş 24 məqalə və tezis dissertasiyanın məzmununu tam əhatə edir.

İşin strukturu. Dissertasiya giriş, 3 fəsil, nəticə, ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

"Giriş"də tədqiqatın aktuallığı əsaslandırılmış, işin obyekti və predmeti, məqsəd və vəzifələri qeyd edilmiş, problemin tədqiq tarixi müəyyənləşdirilmiş, elmi yenilikləri göstərilmiş, işin nəzəri-metodoloji əsasları, nəzəri və praktiki əhəmiyyəti və quruluşu haqqında məlumat verilmişdir.

Dissertasiyanın "Türk xalqlarının əlifba problemi tarixi as-pektdə" adlanan birinci fəsli yeddi yarımfəsildən ibarətdir.

Birinci fəslin *"Türklərin tarixən istifadə etdikləri əlifbalar"* adlanan birinci yarımfəslində göstərilir ki, dil və əlifba hər bir xalqın varlığını, mövcudluğunu təsdiq edən amillərdəndir. Tarix boyunca müxtəlif xalqlarla qarşılıqlı əlaqələr quran fərqli dini inanclara inanan türk xalqları bir-birindən fərqli türk dil sisteminə uyğun olan və ya ol-mayan çoxsaylı yazı sistemindən istifadə etmişlər. Zərurət və zamanın

tələblərinə uyğun şəkildə, məcburiyyətdən qəbul edilən bu yazı sistemlərinə göytürk (runik), mani, soqd, brahmi uyğur, ərəb, kiril, latın əlifbaları aiddir.

Elmi ədəbiyyatda çox vaxt səhv olaraq run və ya runik yazı adlandırılan Göytürk, yaxud Orxon-Yenisey yazısının nə vaxt və harada yaranması haqqında indiyədək yalnız fərziyyələr irəli sürülmüşdür. Türkcənin türklər tərəfindən yazıldığı ilk əlifba Göytürk yazısıdır. [1] Göytürklərdən sonra dövlət idarəçiliyini ələ keçirən uyğurların hakimiyyəti dövründə istifadə olunan türk yazıları türk tarixinin fərq baxımından ən rəngli əlifbalarıdır. Bu dövrdə mani, brahmi, tibet, süryani kimi yazı sistemləri ilə bir çox uyğur türkcəsi mətnləri qeyd edilmişdir.[2]

Uyğurların mani inancını qəbul etməsi ilə istifadəsinə başlanılan mani əlifbası qısa müddət ərzində soqd əlifbası ilə əvəzlənmişdi. Sonralar türklərin bu əlifbalar əsasında formalaşmış, ikinci milli yazısı olan uyğur əlifbası 1000-dən artıq yazılı mirası ilə türk yazı mədəniyyətini geniş şəkildə əks etdirir. Uyğurların istifadə etdikləri brahmi yazısı öyrənilməsindəki çətinliyə və praktik olmamasına görə tezliklə unudulmuşdu. Bu əlifba ilə yazılmış 100-ə qədər buddizmə aid təqvim və yazılar bu gün Berlində saxlanılır. Süryani əlifbası ilə yazılmış türkcə mətnlər isə XIII əsrdə hazırda Yedisu bölgəsindəki Çu və Pişpekdə olan Öngüt türklərinə aid məzar yazılarıdır. Xəzərlər və karayların istifadə etdikləri İbrani əlifbası bir inanc sisteminin təsiri ilə türklər tərəfindən mənimsənilmiş əlifbalardandır. Türklərin ən geniş və uzun müddət yararlandıqları yazı sistemi, sözsüz ki, ərəb əlifbası olmuşdur. IX əsrdən türklərin həyatına daxil olan ərəb əlifbası bir qədər dəyişdirilərək XX əsrədək böyük bir mədəniyyətin yazısına çevrildi. XIX əsrin sonlarından başlayaraq əlifbada islahat hərəkatı ərəb əlifbasının türk yazı sisteminə uyğunsuzluğunu irəli sürərək iki əlifbanın – kiril və latın əlifbalarının türk xalqlarının həyatına daxil olmasına səbəb oldu. 1922-ci ildə Azərbaycanda latın əlifbasına keçilməsi ilə tarixdə ilk dəfə olaraq, türklər latın qrafikalı yazıdan istifadə etməyə başladılar (Bəzi mənbələrdə yakutların 1918-ci ildə latın əlifbasına keçmələri qeyd olunsa da, halhazırda bununla bağlı heç bir rəsmi məlumata rast gəlinmir). 1930-cu illərin sonlarından istifadə edilən kiril əlifbasının qəbulu ilə türklər öz yazı mədəniyyətlərini bir əsrdə üç dəfə dəyişmiş oldular.

---

[1] Tomsen V. "Orhon ve Yenisey Yazıtlarının Çözümü Çözülmüş Orhon Yazıtları", Türk Dil Kurumu Yayınları, Ankara, 1993, s.116.

[2] Clauson Sir Gerard. Turkish and Mongolian Studies, London, 1962, p.261.

Beləliklə, əlifba məsələsi xüsusilə son iki əsr ərzində türk dünyasında və türkologiya elmində ən çox müzakirə olunan və hələ də aktuallığını saxlayan problemlərdən biridir. Fərqli yanaşmalar, illərlə davam edən və hələ də davam etməkdə olan müzakirələrə baxmayaraq, türkdilli xalqların əlifba mücadiləsi hər zaman böyük müzakirələrə səbəb olmuşdur.

Birinci fəslin *"Azərbaycanda latın əlifbasına keçid mücadiləsi*" adlanan ikinci yarımfəslində göstərilir ki, Azərbaycanda tarix boyunca istifadə olunan əlifba sistemləri dilin inkişafına da fərqli şəkillərdə təsir etmiş, alban-göytürk-ərəb-latın-kiril-latın əlifba keçidləri səs sistemində dəyişikliklərə səbəb olmuş, hətta bu yazı sistemlərində qələmə alınmış əsərlərin, maddi-mənəvi mədəniyyət nümunələrinin unudulmasına da səbəb gətirib çıxarmışdır.[1]

Birinci fəslin *"Türkiyədə latın əlifbasına keçid mücadiləsi"* adlanan üçüncü yarımfəslində göstərilir ki, Türkiyədə əlifba mücadiləsi uzun tarixə malikdir və bu, ayrıca yarımfəsil kimi tədqiq edilmişdir. Türkiyədə dil və əlifba islahatı təkcə Cümhuriyyət dövründə deyil, Osmanlı imperiyası zamanında da ən çox müzakirə edilən məsələlərdən olmuşdur.[2] Ərəb əlifbasının türkcədəki bəzi səslərin ifadəsi üçün kifayət etməməsi ilə əlaqədar ilk müzakirələr 1850-ci illərdə Əhməd Cövdət paşa və Münif paşa ilə başlamışdır. Daha sonra N.Kamal, A.Suavi və Ş.Sami kimi ziyalılar bu müzakirələrə qoşuldular. 1868-ci ildə Ömər və Tahir adlı hərbçilər tərəfindən irəli sürülən latın əlifbası ideyasını Z.Göyalp dəstəklədi və beləliklə, getdikcə bu ideya tərəfdarlarının sayı artmağa başladı. Tənzimat dövründən Cümhuriyyət dövrünə qədər latınçılar və ərəb əlifbası tərəfdarları arasındakı müzakirələrə 1928-ci ildə latın qrafikasına əsaslanan yeni əlifbanın qəbulu ilə son qoyuldu.[3]

Birinci fəslin *"Qazaxıstanda latın əlifbasına keçid mücadiləsi"* adlı yarımfəslində qazax əlifbasının keçdiyi inkişaf yolu təhlil edilərək hələ XIX əsrin ortalarından qazaxların kiril əlifbasına keçməsi üçün müxtəlif tədbirlərin görüldüyü, N.A.İlminski, P.A.Melioranski, A.V.Vasilyevin təsiri ilə qazax ziyalılarının da bu ideyanı dəstəklədikləri müəyyənləşdirilmişdir. N.A.İlminski Kazanda kiril hərfli qazax türkcəsi mətnləri çap

---

[1] İsaxanlı İ. Azərbaycanda latın əlifbasına keçid və Fərhad Ağazadə, Bakı, Xəzər Universiteti Nəşriyyatı, 2011, s.172.

[2] Abdulla F.T. Arap Harflerinin İslahı ve Değiştirilmesi Hakkında İlk Teşebbüsler ve Neticeleri (1862-1884), // Belleten, Cilt XVIII, sayı 66, 1953, s.249.

[3] Şirin H.U. Başlangıcından Günümüze Türk Yazı Sistemler, Ankara: Akçağ yayınları, 2006, s.408.

etdirmişdi. 1866-1910-cu illərdə bu çərçivədə 72 kitab nəşr olunmuşdur. 1929-cu ilə qədər ərəb və kiril əlifbalarının paralel şəkildə işləndiyi qazax dilində 1929-1939-cu illər arasında 30-32 hərfli latın əlifbası tətbiq edilmişdi. S.A.Amanjolovun hazırladığı əlifbanın qəbulu ilə qazax dilində 1939-cu ildən bugünə qədər davam edən "kiril əlifbası mərhələsi" başladı. Müstəqillik illərində latın əlifbasına keçidlə bağlı bir çox layihələr hazırlansa da, bu yolda konkret addımlar atılmayıb və hələ də kiril əlifbasından istifadə olunmaqdadır.[1]

"Türkmənistanda latın əlifbasına keçid mücadiləsi" ayrıca yarımfəsil şəklində tədqiqata cəlb edilərək 1929-cu ilədək istifadə olunan ərəb əlifbası və onun islahı, 1927-ci ildən başlayan latın qrafikalı əlifbaya keçid prosesi, 1929-1949-cu illərdə tətbiq edilən latın qrafikalı türkmən əlifbası və nəhayət 1940-cı ildən qəbul olunan kiril əlifbası, 12 aprel 1993-cü ildən rəsmi qərarla keçilən latın əlifbası geniş şəkildə araşdırılmışdır. 70 ildə 4 dəfə dəyişdirilən türkmən əlifbasında qüsurlar meydana çıxmış və bu, türklərdə əlifba ortaqlığının pozulmasına yol açmışdır. Əlifbada aparılacaq bəzi dəyişikliklərlə bu qüsurlar aradan qaldırıla bilər.

Dissertasiyanın I fəslinin bir yarımfəsli də, *"Qırğızıstanda latın əlifbasına keçid mücadiləsi"* adlanır. 1924-cü ildən etibarən Qırğızıstan maarif təşkilatında əhəmiyyətli işlər görən, dərsliklər hazırlayan, ərəb əlifbasını qırğız dilinin xüsusiyyətlərinə görə islah edən və 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayda iştirak edən Qasım Tınıstanov qırğız dili üçün latın əlifbasını da tərtib etmişdir.[2] Q.Tınıstanovun hazırladığı bu əlifba 12 dekabr 1927-ci ildə Qırğızıstan Mərkəzi İcraiyyə Komitəsi heyəti tərəfindən rəsmi şəkildə qırğız rəsmi əlifbası kimi qəbul edilmişdir. Qırğızıstan Elm Araşdırma İnstitutunda hazırlanan qırğız-kiril əlifbası və imlası layihəsi 1940-cı ildə Qırğızıstan Respublikası Ali Soveti tərəfindən müzakirəyə çıxarılır və yeni layihə heyət tərəfindən qəbul edilir. Ali Sovetin 12 iyul 1941-ci il qərarı ilə təsdiq edilən qırğız dilinin yeni əlifbası və imla qaydaları qüvvəyə minir. Qırğız dilinin latın əlifbasına keçidi hələlik bir layihə olaraq qalır.[3] Uzun müddətdir, aparılan müzakirələrə baxmayaraq, bu istiqamətdə konkret addımlar atılmamışdır.

---

[1] Кенесбаев С.К., Мусабаев Г.Г., Неталиева Х. «Об алфавите казахского языка». Вопросы совершенствования алфавитов тюркских языков СССР. Институт Языкознания АН СССР . Москва. 1972, с.66.

[2] Mehmet S. Yeni Türk Cumhuriyetleri Tarihi, Ankara: Türk Tarih Kurumu, 1996, s.522.

[3] Кудайбергенов С. «Совершенствование и унификация алфавита киргизского языка». Вопросы совершенствования алфавитов тюркских языков СССР. Институт Языкознания АН СССР. Москва, 1972, с.193.

I fəslin yeddinci yarımfəsli *"Özbəkistanda latın əlifbasına keçid mücadiləsi"*nə həsr olunmuşdur. 1918-1922-ci illərdə Özbəkistanda əlifba islahatları ilə bağlı "köhnə imlaçılar", "yeni imlaçılar" və "orta imlaçılar" arasında müzakirələr gedirdi və yeni imlaçıların layihəsi olan yeni özbək-ərəb əlifbasının 1923-cü ildə tətbiq olunmağa başlandı.1929-cu ildə Səmərqənddə keçirilən Dil və İmla konfransında 32 hərfli özbək-latın əlifbası qəbul edildi. SSRİ tərkibində digər türkdilli xalqlar kimi, 1940-cı ildə kiril qrafikalı əlifbadan istifadə edən özbəklər müstəqillikdən sonra, 1993-cü ildə latın əsaslı əlifbaya keçid qərarını qəbul etdilər. [1] 31 hərfli əlifbaya 1995-ci ildə dəyişikliklər edilmiş və bununla da özbək əlifbası ortaq türk-latın əlifbasından uzaqlaşdırılmışdır. Özbək dilinin fonomatik quruluşuna yad olan işarələrin əlavə olunması, *ı, ü* saitlərini əks etdirən hərflərin olmaması, *h, x, k, q, n* samitlərinin ikivariantlılığı əlifbanı daha qarışıq və qeyri-praktik etmişdir.

Dissertasiyanın "Türk dillərində imla problemləri" adlanan ikinci fəsli üç yarımfəsildən ibarətdir. İmla termini həm geniş, həm də dar mənada işlədilir. Geniş mənada bu termin yazını nizama salan və tənzim edən bütün qaydaların məcmusunu əhatə edir. *İmla qaydaları* terminini bəzən *orfoqrafik qaydalar* da adlandırırlar. Bu mənada imla termini ilə orfoqrafiya termini arasında əsaslı fərq yoxdur. Dilin sistemli və vahid qaydalar əsasında qrafemlər və digər işarələrlə ifadəsi olan imla dilçilik termini kimi geniş mənada *orfoqrafiya* termini ilə sinonimlik təşkil edir.[2]

B.Çobanzadə bu barədə yazır: "İmla sözü ərəbcə olub, "doldurmaq" mənasını ifadə edir. Ərəbcədə vaxtilə nöqtəsiz yazılan hərflərin nöqtələrini qoyub oxumaq mənasına gəlsə gərəkdir. Halbuki, bu sözün Avropa dillərindəki qarşılığı "orfoqrafiya"dır ki, iki ayrı sözdən tərəkküb etmişdir: orfo-qrafiya. Birinci sözün – "orfo"nun mənası *düz, doğru* demək olduğu kimi, ikinci sözün, "qrafiya"nın mənası *"yazmaq"*dır. Bu surətlə bütün sözün mənası "düz yazmaq, doğru yazmaq demək olur".[3]

Ədəbi dilləri inkişaf etmiş bütün xalqların orfoqrafiya qaydaları və orfoqrafiya lüğətləri vardır. Müəyyən, sabit, normalaşmış qrammatik-leksik forma və vahidlərə malik ədəbi dil özünün fəaliyyəti və inkişafı prosesində danışıq dili və dialektlərlə, başqa dillərlə daim qarşılıqlı əlaqədə olur. Bu prosesdə həmin normaların sabitliyini təmin etmək üçün müəyyən

---

[1] F. Kılıç S. Cigitovla Kırgızıstanda Dil ve Alfabe Hareketi Üzerine, İzmir: Türk Dünyası İncelemeleri Dergisi, 2002, s.524.

[2] Ə.Əfəndizadə, "Azərbaycan dili orfoqrafiyası tədrisinin elmi əsasları", Bakı, Maarif, 1968, s.72.

[3] Bəkir Çobanzadə, "Seçilmiş əsərləri", Beş cilddə, IV cild, "Şərq-Qərb", Bakı, 2007, s.107.

qanunların tərtibi vacibdir. Bu qanunların məcmusu olan orfoqrafiya yazıda sözlərin və onların bütün qrammatik formalarının düzgün yazılışını müəyyənləşdirir və təsbit edir. "Orfoqrafiya – yazılı nitqdə dil vahidlərinin yazılışını tənzimedici qaydalar sistemidir".[1]

Türk dilləri bir-birindən elə də, ciddi şəkildə fərqlənmir. Həm genetik, tipoloji, həm də qrammatik quruluşları, əsas lüğət tərkiblərinin ümumilikləri onların bir dil ailəsində – türk dilləri ailəsində birləşməsinə səbəb olmuşdur. Məhz bu dil qrupunun demək olar ki, hamısı bir-birini elə bu ümumiliyə görə rahat şəkildə başa düşə bilirlər.

Başqa sözlə desək, türk dillərinin fonetik, leksik və qrammatik quruluşu haqqında danışılarkən VI əsrdən sonrakı yazılı abidələrə əsaslanılır, türk dillərinin qədim quruluşu haqqında fərziyyə yolu ilə fikir söylənilir. Bundan əlavə, türk dillərinin quruluşunun sabitliyindən çıxış edərək müasir türk ədəbi dillərinin materiallarını ümumiləşdirmə yolu ilə də fikir söyləmək elmi cəhətdən özünü doğruldur.

Məhz bütün bunları nəzərdə tutan F.Zeynalov türk dillərinin quruluşu ilə bağlı fikir söyləyərkən əsasən bunları nəzərdə tuturdu: a) türk dillərinin fonetik quruluşu; b) türk dillərinin morfoloji quruluşu; c) türk dillərinin sintaktik quruluşu.[2]

Türk dillərinin qrammatik quruluşu çox uzun və zəngin bir inkişaf yolu keçmiş, zaman keçdikcə təkmilləşmiş, cilalanmış, həm qohum və həm də qeyri-qohum dillərin qarşılıqlı əlaqə və təsiri altında formalaşmışdır. Müasir türk dillərinin fonetik sistemində ümumi cəhətlərlə yanaşı, çoxlu fərdi xüsusiyyətlərin varlığı məhz bu tarixi inkişafın qanunauyğunluqlarının məhsuludur. Azərbaycan, Türkiyə türkcəsi, türkmən, qazax, qırğız və özbək dillərində bu proses nəticəsində yaranmış spesifik imla qaydaları *"Türk dillərinin oğuz, qıpçaq, qarluq qrupu dillərinin ümumi imla qanunauyğunluqları"* adlı yarımfəsillərində təhlil edilmişdir.

Türk dilləri ortaq qanunlara itaət edərək, lakin özlərinə xas olan tarixi yolla inkişaf edib, formalaşmışdır. Müstəqil inkişaf nəticəsində ortaya çıxan fərqliliklər hər dilin daxili qanunları əsasında meydana gəlmişdir.

Türkdilli xalqlar başlanğıcda bir kökdən meydana gəlsələr də, onun etnik tərkibi (quruluşu) bir kökə bağlı olmayıb, fərqli millət və boylardan, boylar birliyindən qurulmuş, onların dillərində də müəyyən fərqliliklər meydana gəlmişdir. Müəyyən səbəblərə görə, türk boylarının daha əvvəl yaşadıqları Orta Asiyadan köçüb yurdlarını dəyişdirdikləri, Uzaq Şərqdən

---

[1] Dəmirçizadə Ə. Müasir Azərbaycan dili, Bakı, Maarif, 1972, 308 s.

[2] Zeynalov F. Türkologiyanın əsasları. Bakı, Maarif, 1981, 348 s.

Don çayı və Qara dənizə qədər çox geniş ölkələrə yayılıb yerli xalqlarla qaynayıb-qarışdıqları tarixdən bizə məlumdur. Bu qarışıqlıq daha sonra ortaya çıxan müstəqil türk xalqlarının dilinə, etnik quruluşuna, həyat tərzlərinə təsir etmişdir. Tarixi məlumatlara nəzər saldıqda, bir boya mənsub kütlənin bir çox fərqli xalqın dilinə, etnik quruluşuna qarışdığını görə bilərik.

Türk dillərinin imla məsələləri araşdırılan zaman diqqəti cəlb edən xüsusi məsələlərdən biri də y samitinin istifadəsi ilə bağlıdır. Türk dillərini tədqiq edən tədqiqatçıların bir çoxu, o cümlədən A.M.Şerbak *y* samitinin qədim türk dilində (sözün əvvəlində) istifadə edilmədiyi qənaətindədir. Onun fikrincə, "sözün əvvəlində *y* yerinə s istifadə edilmiş və bu samit ilk xüsusiyyətilə çuvaş *(ç)* və yakut *(s)* dillərində qorunmaqdadır". [1] S.E.Malov isə, *y* samitinin qədim türk yazılı əsərlərində az istifadə edildiyini, bunun səbəbinin isə bu samitin son zamanlar meydana gəldiyini iddia edirdi.

Ümumtürkoloji fikrə görə, kök saitlər sistemində səkkiz qısa saitlə yanaşı, səkkiz də uzun sait olmuşdur. Uzun saitlərin türkologiyada, bir qayda olaraq, ilkin uzanma və sonrakı uzanma olmaq üzrə iki yerə bölündüyünü qeyd etdikdən sonra A.M.Şerbak göstərir ki, ilkin uzun saitlər kök dilin mövcud olduğu dövrlərə gedib çıxır və beləliklə, ona ümumtürk hadisəsi kimi baxılmalıdır.

Qeyd etdiyimiz bu məsələlər imla qaydalarının araşdırılması baxımından çox böyük əhəmiyyət kəsb edir. Məhz bu baxımdan da biz tədqiqat işimizdə türk dillərinin imla qaydalarının hər birini ayrı-ayrılıqda qeyd etməklə oradakı müxtəlifliklər verməyə çalışacağıq. Ümumi türkoloji fikrə görə, kök saitlər sistemində səkkiz qısa saitlə yanaşı, səkkiz də uzun sait olmuşdur. Uzun saitlərin türkologiyada, bir qayda olaraq, ilkin uzanma və sonrakı uzanma olmaq üzrə iki yerə bölündüyünü qeyd etdikdən sonra A.M.Şerbak göstərir ki, ilkin uzun saitlər kökdilin mövcud olduğu dövrlərə gedib çıxır və beləliklə, ona ümumtürk hadisəsi kimi baxılmalıdır. Lakin qeyd edək ki, bu "ümumtürk hadisəsi" türk dillərinin az bir qismində mühafizə olunmuşdur. Uzun saitlərin türk dillərindən yalnız altay, qaqauz, qırğız, tofalar, tuva, türkmən, xakas, şor və yakut dillərində mühüm fonoloji əhəmiyyəti vardır.[2]

Bununla belə, həmin "ümumtürk hadisəsi" türk dillərinin bir qismində mühafizə olunmuşdur. Uzun saitlərin türk dillərindən yalnız altay,

---

[1] А.М.Щербак. Сравнительная фонетика тюркских языков. Ленинград, 1970, с.48

[2] A. Axundov. Azərbaycan dilinin fonetikası, Bakı, Maarif, 1984, 390 s.

qaqauz, qırğız, tofalar, tuva, türkmən, xakas, şor və yakut dillərində mühüm fonoloji əhəmiyyəti vardır.[1]

Dissertasiyanın "Ortaq ünsiyyət dilinin formalaşmasında türklərdə əlifba və imla problemləri" adlanan üçüncü fəsli iki yarımfəsildən ibarətdir. *"Türk xalqları üçün ortaq ünsiyyət dilinin zəruriliyi"* adlanan birinci yarımfəsildə qeyd olunur ki, XX əsrin əvvəllərində istər Azərbaycanda, istərsə də digər türkdilli bölgələrdə milli dirçəliş, milli oyanış dövrü olduğuna görə türk xalqlarının birliyi ideyası da aktuallaşdı. Türk xalqlarının birliyi ideyasında önəmli məsələlərdən biri də ortaq dil məsələsi idi.

XX əsrin əvvəllərində ortaq türk dili və ortaq türk əlifbası ideyalarının təbliğ olunması ilk növbədə bu dövrdə türkçülük hərəkatının böyük vüsət alması ilə bağlı idi. Həm Türkiyədə, həm də digər türk xalqları arasında milliyyətçi qüvvələr türkçülüyü böyük bir hərəkata çevirdilər. Bu hərəkatın öncülləri Yusuf Akçuraoğlu, Əhməd Ağaoğlu, Əli bəy Hüseynzadə, Ziya Göyalp, İbrahim Şinasi, Namiq Kamal, Bəkir Çobanzadə idi. XX əsrin 90-cı illərində türkdilli xalqların ictimai-siyasi həyatında baş verən çox böyük tarixi dəyişikliklər, bütövlükdə türk dünyasının daha da yaxınlaşması və milli təməl uğrunda birləşməsi yeni-yeni problemlərin meydana çıxmasına səbəb olmuşdur.[2] 70 illik fasilədən sonra müstəqillik dövründə ortaq türkçülük ideyalarının davamçıları bu hərəkatı daha da genişləndirərək əməli fəaliyyətə başladılar.

Hazırda türkoloji dilçiliyi ayrı-ayrı türk dillərinə dair məsələlərlə yanaşı, bütün türkdilli xalqların vahid ünsiyyəti üçün ümumi olan problemlər daha çox maraqlandırır. Bunlardan biri də türklər arasında vahid ünsiyyət dilinin yaradılmasıdır.

Ortaq türklük ideyasının aparıcı qüvvələrindən biri olan və türkçülük hərəkatının əsasını qoyan Ziya Göyalpın yazdığı kimi:

Türklüyün vicdanı bir,
Dini bir, vatanı bir.
Fəqət həpsi ayrılır,
Olmazsa lisanı bir.

"XIX əsrin sonlarında və XX əsrin əvvəllərində Qafqaz bölgəsində əslən Krım tatarı olan İsmayıl bəy Qaspıralının nəşr etdirdiyi "Tərcüman" qəzeti ortaq türk ədəbi dili ideyasının yayılmasında müstəsna tarixi rol

---

[1] A.Axundov "Azərbaycan dilinin fonetikası", Bakı, Maarif, 1984.

[2] A.Qurbanov. "Ortaq türk ədəbi dili", Bakı, Gənclik, 1999, s.3.

oynamışdır”. [1] Ümumiyyətlə, ortaq ədəbi dil hər zaman bir mübahisə mövzusu olmuşdur. Ona qarşı çıxanlarla yanaşı, onu dəstəkləyənlər də vardı. Bu məsələ repressiya illərinin başladığı 30-cu illərə qədər davam etdirilmişdir.

Qohum xalqlar üçün ortaq ünsiyyət vasitəsi yaratmaq onların inkişafında xüsusi əhəmiyyət kəsb edir. Ortaq ədəbi dil elmi, mədəni, iqtisadi və siyasi əlaqələrin yaranıb genişlənməsində əvəzsiz vasitədir. Başqa xalqlar kimi, türk dünyasını təşkil edən hər bir xalqın da tarixən öz doğma, zəngin ədəbi dili yaranıb formalaşmışdır. Bu çoxsaylı türk ədəbi dilləri, təbii olaraq, bir-birindən az-çox fərqlənir. Həmin fərqlər dillərin bütün komponentlərində və ən çox lüğət tərkibini təşkil edən vahidlərində özünü daha qabarıq göstərir.

Türk xalqları üçün ortaq türk ədəbi dilinin yaradılmasına böyük ehtiyac duyulur. Ortaq dil yaratmaq artıq zamanın tələbidir. A.Qurbanov “Ortaq türk ədəbi dili” kitabında türkdilli xalqların ortaq türk ədəbi dili vasitəsilə türk xalqlarının əlaqələri möhkəmləndikcə iqtisadi, siyasi və mədəni cəhətdən yüksək inkişafa nail olmaq imkanı əldə edə biləcəklərini qeyd etmişdir.[2]

Türk xalqları üçün vahid ünsiyyət dilinin yaradılması istiqamətində görülməli ilk iş bütün türkdilli xalqların ortaq və ümumi əlifbaya keçməsidir. Bu əlifbanın bütün türk xalqları arasında yayılmasında, öyrədilməsində və istifadə edilməsində dilçi alimlərin üzərinə böyük məsuliyyət düşür. Yeni yaradılacaq əlifbanın və ortaq türk dilinin rəsmi siyasi dairələrdə geniş istifadə olunacağı zərurətini nəzərə alaraq məsələnin türkdilli dövlətlərin hökumətləri səviyyəsində qaldırılması konkret nəticələrin əldə olunmasına münbit şərait yarada bilər. Eyni zamanda rəsmi yazışma və ünsiyyət dillərinin vacibliyini heç də minimuma endirməməklə türkdilli dövlətlər üçün ən məqbul ünsiyyət dilinin məhz ortaq türk dilinin olması xüsusi olaraq vurğulanmalıdır.[3]

Türkdilli ölkələr müstəqilliklərini qazanandan sonra ortaq ünsiyyət dili məsələsi yenidən müzakirə olunmağa başlandı. Türk dünyasında ortaq dil və əlifba ilə bağlı simpoziumların birincisi 18-20 noyabr 1991-ci ildə Türkiyədə (Mərmərə Universiteti Türkiyat Araştırmaları Enstitüsü) təşkil

---

[1] S.Şimşək. “XX əsrin əvvəllərində Azərbaycanda mətbuat və Osmanlı türkcəsi” adlı fil.ü.f.d. namizədlik dissertasiyası, Bakı, 2015, s.138.
[2] A.Qurbanov. “Ortaq türk ədəbi dili”, Bakı, Gənclik, 1999, s.4.
[3] Banguoğlu Tahsin. “Türkçenin Grameri”,Türk Tarih Kurumu Basımevi, Ankara, 1986 s.16.

edildi.[1] SSRİ-nin tərkibindən çıxan ölkələrdən dəvət edilmiş türkoloqların fərqli əlifba layihələri təqdim edilmiş və uzun müddət davam edən müzakirələr nəticəsində 34 hərfdən ibarət ortaq əlifba *(a, b, c, ç, d, e, ä, f, g, ğ, h, x, ı, i, j, k, q, l, m, n, ň, o, ö, p, r, s, ş, t, u, ü, v, w, y, z)* qəbul edilmişdir.[2]

Türk dili bu gün artıq geniş bir coğrafi ərazidə danışılan dildir. Bu gün türk dili yalnız Anadoluda və Balkanlarda, Türküstanda və Sibirdə deyil, taleyin hökmü ilə Avropa, Amerika, Avstraliyada məskən salmış, türklər sayəsində dünyanın hər tərəfində işlədilən beynəlxalq dildir. Türk dilləri Balkan yarımadasından Uzaq Şərqə qədər geniş ərazidə istifadə edilir. Fərqli məkanlarda yaşayan və fərqli ləhcələrdə danışan türklər, bir-birlərini anlaya bilmirlərsə, burada türk ailə birliyindən danışmaq bir qədər özünü doğrultmur və bu uyğunsuzluğun gündən-günə böyüməsinin qarşısı mütləq alınmalıdır. Ortaq türkcə ideyası məhz belə yaranmışdır.

Bu məsələnin həlli və türkdilli xalqların ümumi ünsiyyət dilinin formalaşdırılması üçün əsas və zəruri tədbirlər həyata keçirilməlidir:

– Türkdilli xalqlar arasında ortaq ünsiyyət dilini yaratmaq üçün ilk öncə ortaq əlifba hazırlanmalı, ortaq əlifbada bütün türk dillərindəki fonemlər nəzərə alınmalıdır;

– Türklər arasında ortaq ünsiyyət dilini yaratmaq üçün yerinə yetirilməli olan ikinci əsas iş ortaq lüğətin işlənib hazırlanmasıdır. Burada da, yuxarıda qeyd etdiyimiz kimi, bütün türkdilli xalqların dillərindəki işlək sözlər və ifadələr nəzərə alınmalıdır;

– Türk dünyasının ortaq ədəbiyyatının şah əsərləri, dastanlar, nağıllar, bayatılar, atalar sözləri və s. folklor nümunələri hər bir türkdilli ölkədə nəşr olunmalı, bu ədəbi əsərlər dünyaya bütün türk dünyasının ortaq dəyərləri kimi təqdim edilməlidir;

– Türkdilli ölkələrdə türk dünyasının ədəbiyyat nümunələri məktəblərdə tədris edilməli və dərsliklərdə hər bir türk dilindən mətn parçaları verilməli, həmin dildəki əsərlərdən hissə-hissə materiallar lüğət tərkibi ilə birlikdə təqdim olunmalıdır;

---

[1] Ziyafet Eyvazova. "Latın əlifbasından kril əlifbasına, kril əlifbasından latın əlifbasına keçid prosesində Azərbaycan mətbuatı", adlı fil.ü.f.d. namizədlik dissertasiyası, Ankara, 2008, s.254.

[2] Mustafa Öner. "Ortak Türk Alfabesi Hakkında Bazı Notlar", Yeni Türkiye, 1997. Sayı 15, s.208.

– Türk dünyası şair və yazıçılarının əsərləri bütün türk dillərində ortaq türk əlifbası ilə nəşr olunmalı, səhifənin bir tərəfində mətn, qarşısında isə lüğəti verilməlidir;

– Türk cümhuriyyətlərinin radio və televiziya verilişlərinin türk xalqları tərəfindən izlənilməsi təmin edilməlidir;

– Türk dünyasındakı mədəniyyət və incəsənət əlaqələri qarşılıqlı inkişaf etdirilməli və daha da genişləndirilməlidir;

– Musiqi, kino, teatr kimi incəsənət sahələrində əlaqələrin inkişaf etdirilməsi də ortaq ünsiyyət dilinin formalaşmasına təkan verən amillərdən sayıla bilər;

– Türk dillərində gündəlik istifadə üçün danışıq kitabları hazırlanmalı, burada istifadə ediləcək cümlələrdə ortaq sözlərə üstünlük verilməlidir. Bir dil üçün xüsusi ifadə yerinə, hər dildə rahat başa düşüləcək sözlər seçilməlidir;

– Dialekt və şivə kimi ümumi ünsiyyət dilinin formalaşmasına əngəl olan yanaşmalardan çəkinilməlidir. Türk xalqlarının qarşılıqlı ünsiyyətlərində öz dillərindən başqa bir dili ümumi ünsiyyət dili olaraq seçməlidir. Xalqlar arasındakı ünsiyyətdə rus və ingilis dilləri kimi xarici dillərdən istifadə edilməsi ortaq ünsiyyət dilinin və ortaq yazı dilinin yaradılmasını gecikdirməklə yanaşı, hətta bunu əngəlləyir;

– Türk xalqları arasında ünsiyyəti gücləndirəcək və inkişaf etdirəcək digər vasitə internetdir. Türk xalqlarının məlumat əldə etməsi üçün ortaq əlifbanın tətbiq edilməsinə ən qısa zamanda başlanılmalıdır. İnternetdə türk xalqları üçün ana dillərində məlumat əldə etmək və internetdən istifadə etmək üçün ortaq internet terminləri hazırlanmalı və tərtib edilməlidir;

– Türk cümhuriyyətləri universitetlərinin və digər qurumların internetdə açacaqları səhifələr ilkin versiya olaraq mütləq ana dilində hazırlanmalıdır. Ana dilindəki internet səhifələri xarici dillərə də tərcümə edilə bilər;

– Türk cümhuriyyətləri ortaq ünsiyyət dilinin yaradılması üçün türk dil qurultaylarının keçirilməli, bu qurultaylarda ortaq ünsiyyət dilinin yaradılması şərtləri nəzərə alınmalı, bu istiqamətdə həyata keçiriləcək tədbirlər əlaqələndirilməlidir.

Məsələnin türk dünyası üçün böyük əhəmiyyətini nəzərə alaraq, bu sahədə işlərin sürətləndirilməsi olduqca zəruridir, burada da aidiyyəti sahədə mütəxəssislərin birgə və ya fərdi fəaliyyətləri ilə yanaşı, hər bir türkdilli dövlətdə hökumət səviyyəsində təşkilati-idarəçilik dəstəyinin

göstərilməsi təmin edilməlidir. Türkdilli xalqlar arasında vahid ünsiyyət dilinin yaradılması və türkdilli xalqların mənşə (tarixi formalaşma) prinsipinə əsasən inteqrasiyası ilə bağlı qərarlar hökumətlər səviyyəsində qəbul edildiyi halda, bu cür dəstəyin göstərilməsi labüddür və gözlənilən dir. Təsadüfi deyildir ki, K.Ələkbərova "dil birliyinin etibarlı təminatı üçün ilk növbədə, türk dünyasının ictimai-siyasi, iqtisadi, elmi, mədəni və mənəvi əlaqələrinin möhkəmləndirilməsi"nin zəruri olduğunu xüsusi vurğulayır.[1]

Həyata keçiriləcək bu işlərlə ortaq ünsiyyət dilinin formalaşdırılması təmin ediləcək və ortaq ünsiyyət dili – ortaq türk yazı dilinin bünövrəsi qoyulacaqdır.

Ortaq türk dili anlamı iki mühüm məsələni özündə birləşdirmiş olur: 1. Ortaq türk dili beynəlxalq ünsiyyət vasitəsi olan bir dil kimi; 2. Ortaq türk dili ortaq əlifbası, orfoqrafiyası, terminologiyası olan bir dil kimi.[2]

Dissertasiyada *"Ortaq ünsiyyət dilinin yaradılmasında mövcud problemlər və onların aradan qaldırılması yolları"* adlanan üçüncü fəslin ikinci yarımfəslində qeyd olunur ki, türklər üçün ortaq ünsiyyət dili ilə bağlı bir neçə dəfə cəhd göstərilsə də, müsbət nəticələr əldə edilməmişdir. Bu cəhdlərin həyata keçirilməsi və mövcud problemlərin işlənməsi üçün obyektiv imkan və şərait yaranmışdır. Bu gün Azərbaycan dili türk dilləri arasında ortaq ünsiyyət dili üçün vasitəçilik missiyasını yerinə yetirməyə qadir beynəlxalq statuslu dildir. Lakin Azərbaycan dilinin türkdilli xalqlar arasında ortaq ünsiyyət dili funksiyasına yiyələnməsi üçün bəzi işlər görülməlidir.

Azərbaycan dilinin türk dünyası üçün ortaq dil olma yolunda türk xalqlarının ortaq şəkildə istifadə edə biləcəyi bir dili təmin etmək bu günümüz üçün çox əhəmiyyətli və aktual bir işdir. Türk xalqlarının bütövlüyü ortaq dəyərlərdən asılıdır. Bu ortaqlığın ən güclü vasitəsi isə ümumi ünsiyyət dilinə sahib olunmasıdır.

Azərbaycan dilindən əlavə, bəzi tədqiqatçılar Türkiyə türkcəsinin də türk xalqları arasında ortaq ünsiyyət dili olması fikrini irəli sürürlər. Ancaq təəssüf hissi ilə deyə bilərik ki, Türkiyə türkcəsinə Avropa sözləri çox asanlıqla transformasiya olunur. Türkiyə Cümhuriyyətinin qurucusu Atatürk bir nitqində belə deyirdi: *"Ölkəsini, yüksək istiqlalını qorumağı bilən türk milli dilini də xarici dillərin təsirindən xilas etməlidir"*. Narahatlıq doğuran məqam ondan ibarətdir ki, "dil xilaskarları"nın

---

[1] K. Ələkbərova, "XX əsrin əvvəllərində Azərbaycan ədəbi dilinə Türkiyə türkcəsinin təsiri", Bakı, 2010, s.124.

[2] A. Axundov, "Dil və Ədəbiyyat", Bakı, 2003, s.245.

təmizləmə prosesinə yanaşma prizması anlaşılmazdır. Bu gün türk dilində *"fürsət"* sözü yerinə *"şans", "hücum"* yerinə *"atak", "maraqlı"* yerinə *"enteresan"* kimi sözlər istifadə edilir. Başqa bir nümunəyə müraciət edək: *"sıxıntı"* yerinə *"depressiya", "sarsıntı"* yerinə *"stress", "üz-üzə"* yerinə *"direkt", "görüş"* yerinə *"randevu"* və s.

Azərbaycan dili bu gün Türkiyə türkcəsindən çoxlu sayda söz alıb istifadə edir. Bunlardan bir neçəsini qeyd etmək istərdik. Bunların istifadəsi Azərbaycan dili üçün faydalı olmuşdur: *"nöqteyi-nəzər"* yerinə *"baxış", "tədqiqat"* yerinə *"araşdırma", "kompüter"* yerinə *"bilgisayar",* bir zamanlar rus dilində istifadə olunan *"kvorum"* yerinə *"yetersay", "familiya"* əvəzinə *"soyad", "əhəmiyyət"* yerinə *"önəm", "lider"* əvəzinə *"öndər".*[1]

Ayrı-ayrı türkdilli dövlətlərdə türk dilində məktəblərin açılması, televiziya proqramlarının yayımlanması, qurultay və ya simpoziumların təşkil edilməsi bu işi daha da sürətləndirəcəkdir. Türk dilinin türk dünyası üçün ortaq dil olma ehtimalı get-gedə daha çox reallaşır.

Tədqiqat aşağıdakı nəticələrə gəlməyə əsas vermişdir:

1. Tədqiqat nəticəsində aydın olur ki, tarix boyunca müxtəlif siyasi-ictimai, dini təsirlər nəticəsində türk xalqları müxtəlif əlifbalarda istifadə etmişlər ki, bu da zaman-zaman türklər arasında əlaqələrin zəifləməsinə, mədəni irsin inkişafındakı ardıcıllığın pozulmasına səbəb olmuşdur.
2. M.F.Axundovla başlayan "əlifba islahı" hərəkatı XX əsrin əvvəllərində geniş vüsət almış, Azərbaycanda müxtəlif əlifba tərəfdarları olan ziyalılar arasında aparılan müzakirələrin nəticəsi olaraq bir əsrdə üç dəfə yeni əlifba sistemi tətbiq olunmuşdur. Bu dəyişikliklər xalqın çoxəsrlik mədəniyyət və yazı tarixində qopuqluqlar yaratmış və sonda latın əlifbasına keçidlə türk xalqları arasında əlaqələrin yenidən qurulması tələbini gündəliyə salmışdır.
3. Dil və əlifba islahatının həyata keçirildiyi Türkiyədə müəyyən hərflərin əlifbadan çıxarılması həmin hərflərin ifadə etdiyi səslərin fonem funksiyalarını itirilməsinə və unudulmasına səbəb olmuşdur. Nəticədə, ərəb əlifbasının tətbiq olunduğu zamanlarda dildə istifadə edilən fonemlərin əlifbada olmaması, xüsusən onun samit hərflərində tələffüz normalarında da fərqliliklər yaratmışdır.

[1] T. Hacıyev. "Türklər üçün ortaq ünsiyyət dili", Bakı, Təhsil, 2013, s.187.

4. Tədqiqat nəticəsində aydın olur ki, qazax və qırğız dillərində əlifba məsələsi xalqın və ziyalıların istəyi ilə deyil, N.A.İlminskinin apardığı missionerlik fəaliyyətinin nəticəsi olmuşdur. Onun hazırladığı kiril əlifbasının özünün açdığı rus-qazax məktəblərində tətbiqi, 1866-1910-cu illərdə bu əlifba ilə çoxsaylı kitabların nəşri və s. məsələlər qazax xalqının kirilə keçidini sürətləndirmişdir. Beləliklə, qazax dilinin latın əlifbasına keçidi günün zəruri tələbidir və bu, türk dünyası daxilində əlaqələrin qorunması üçün vacibdir.

5. Türkmən dili əlifba islahatlarının aktiv şəkildə həyata keçirildiyi dillərdən biri kimi diqqəti cəlb edir. Lakin çoxsaylı islahatlar nəticəsində dilin fonetik səviyyəsində müəyyən qüsurlar yaranmışdır ki, bu da əslində zaman keçdikcə dilin orfoepik və orfoqrafik sistemində qalıcı xətaların əmələ gəlməsinə səbəb olacaqdır.

6. Qırğızıstanda dəfələrlə əlifba islahatları keçirilməsinə baxmayaraq, hələ də, qırğız dilinin latın əlifbasına keçid məsələsi bir layihə olaraq qalır. Uzun müddətdir aparılan müzakirələrə baxmayaraq, bu istiqamətdə konkret addımlar atılmamışdır.

7. Özbəkistan postsovet məkanında latın əlifbasına keçən ilk dövlətlərdən olsa da, 1995-ci ildə 31 hərfli əlifbaya dəyişikliklər edilmiş və bununla da özbək əlifbası ortaq türk-latın əlifbasından uzaqlaşdırılmışdır. Özbək dilinin səs quruluşuna yad olan işarələrin əlavə olunması, *ı,ü* saitlərini əks etdirən hərflərin olmaması, *h, x, k, q, n* samitlərinin iki variantlığı əlifbanı daha qarışıq və qeyri-praktik etmişdir.

8. Oğuz qrupu türk dillərinin tarixi birliyi müasir dövrdə bu dillərin fonetik quruluşunda da öz əksini tapmışdır. Ortaq imla qanunauyğunluqlarının tətbiqi qeyd olunan dilləri bir-birinə yaxınlaşdırmaqla bərabər – gələcəkdə ümumtürk imla qaydalarının da yaradılmasına bir vəsilədir.

9. Tədqiqatlar göstərir ki, qıpçaq qrupu türk dilləri ədəbi dilin formalaşdığı mərhələdən yad dil ünsürlərinin təsirinə məruz qaldığından imla qaydalarının qəbulu zamanı qazax və qırğız dillərinə uyğun olmayan məsələlər də məcburi şəkildə orfoqrafiyaya daxil edilmişdir. Bu dillərin gələcək inkişafı üçün həmin yad ünsürlər – hərflər və imla qanunauyğunluqları dildən çıxarılmalı, dilin daxili imkanlarına əsaslanan prinsiplər müəyyənləşdirilməlidir.

10. Türk dünyası üçün ortaq əlifba və ortaq ünsiyyət dilinin tərtibi zamanı istisnasız Azərbaycan dili (Azərbaycan əlifbası) əsas rol oynayacaq. Bununla əlaqədar olaraq digər türk dillərinin də əsas spesifik xüsusiyyətləri türk dillərinin ümumi qaydalarına daxil edilməli, yəni Azərbaycan dili

ortaq dil səviyyəsində inkişaf etdirilməlidir. Lakin bu məsələdə digər dillərə yanaşma düzgün müəyyənləşdirilməli, həmçinin Azərbaycan dilinin daxilindəki problemlər qısa müddətdə öz həllini tapmalı, əlifbasına yeni əlavələr edilməlidir.

11. Türk dillərinin ortaq ünsiyyət vasitəsinin və ortaq əlifbanın qəbul edilməsi türk dillərinin tarixi yaxınlığının müasir dövrdə də yaranmasına səbəb olacaq. Ortaq türkcə yalnızca bir dilin inkişafını təmin etməklə türk dillərinin gələcəyini şübhə altına almamalı, əksinə, artıq az işlək olan türk dilləri də dirçəlməli, digər türk dillərinin də Azərbaycan dilinin kölgəsində qalmasının qarşısı alınmalıdır.

Dissertasiyanın əsas məzmunu, nəticələri və əldə olunmuş yeniliklər aşağıdakı tezis və məqalələrdə əksini tapmışdır:

1. Turkey Turkish the common language problems and solutions, // Journal of Qafqaz University, Philology and Pedagogy, Number 1, Volume 2, 2014, p 7-16.
2. Ortaq türkcənin təməli İsmayıl bəy Qaspıralının "Dildə, fikirdə, əməldə birlik" ideyaları, // AMEA-nın Xəbərlər, Humanitar Elmlər №2, Bakı, Elm, 2014, s.179-186
3. Türkiyə türkcəsinin ortaq ünsiyyət dili statusuna yiyələnməsində mövcud problemlər və onların aradan qaldırılması yolları, // Dilçilik İnstitutunun Əsərləri, №1, Bakı, Elm və təhsil, 2014, s.101-107.
4. 1926-cı ildə Bakıda keçirilən Türkoloji Qurultayda türkdilli xalqlar üçün ədəbi dil və ortaq türk dili məsələsi, // Tədqiqlər, №2, Bakı, Nurlan, 2014, s.26-41.
5. "Türk Dilli Halklar Arasında Ortak, Konuşma Dili İçin Ortak Alfabe Oluşturma Üzerine Tespitler" // İstanbul Kültür Üniversitesi V. Uluslararası Türk Dili ve Edebiyatı Öğrenci Kongresi (TUDOK 2014), 23-24 Haziran 2014, İstanbul, s. 99-109.
6. "Türk Dilli Halkların Latın Alfabesine Geçiş Mücadilesi ve Kazan Tatarlarının Latın Alfabesi Sorunu" // Türk Dünyası Araştırmaları Vakfı, 12. Uluslararası, Türk Dünyası Sosyal Bilimler Kongresi, 30 ağustos – 06 eylül 2014 / Kazan, II cild, s.1045-1052.
7. "Turançılıq və ortaq türkcə dəyərlərinin Əli bəy Hüseynzadə mərtəbəsi" // "Sələflər və Xələflər" I beynəlxalq simpoziumunun materialları. 22-24 oktyabr 2014, Bakı, Elm və təhsil, 2014, s.89-95.

8. Türk Halkları Arasında Ortak Konuşma Dili İçin Ortak İmla ve Alfabe Sorunları, IX Uluslararası Büyük Türk Dili Kurultayı Bildirileri, 26-27 sentyabr 2014, Ankara, s. 107-121.

9. "Bilim Dili Olarak Türkçenin Gücü (Türkçenin Ortak konuşmak dili ve Dünya dili olma sorumlulukları), "8. Dünya Dili Türkçe Sempozyumu", // 15-17 oktyabr 2015, Türkiyə Cümhuryeti Çanakkale şəhəri, Onsekiz Mart Üniversiteti, II cild, s. 460-569.

10. "Türk Dünyasında Ortak Türkçe Oluşturulmasında Esas Sorunlar", // 13-cü Uluslararası Türk Dünyası Sosyal Bilimler Kongresi", 28-29 oktyabr 2015-ci il, Bakı, s.989-992.

11. "The formation of o common language of communication between the Turkic-speaking people problems and ways to overcome them, recommendations and approaches", // Akademik Elm Həftəliyi-2105 Beynəlxalq Multidissiplinar Forum, 02-04 noyabr 2015-ci il, Bakı, s. 217.

12. "Kitabi-Dədə Qorqud kitabı-nın dili", // Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illik yubileyinə həsr olumuş "Türk epos düşüncəsi yazılı abidələrdə" mövzusunda Respublika elmi konfransı, Azərbaycan Respublikası, Azərbaycan Dövlət Pedoqoji Universiteti, 19-20 noyabr 2015-ci il, Bakı.

13. "Türk dünyasında ortaq ünsiyyət dilinin yaradılmasında əlifba, imla, yazı dili məsələsi", // Filologiya məsələləri, №6, 2015, Bakı, Elm və təhsil, s. 51-57.

14. "Orta Asiyada əlifba mübarizəsinə bir baxış (Qazaxıstanda əlifba mücadiləsi)", // Gənc Alimlərin Əsərləri, UOT 80/81, №11, Bakı, Mütərcim, 2015, s. 254-259.

15. "Alphabet, Dictation, Writing Language Issue In Establishment of Common Communcation Language In The Turkish World", // The USA Journal of Applied Sciences, №6, 2015, NY, USA, p. 17-21.

16. Усилия тюркоязычных народов по переходу на латинский алфавит и латинский алфавит у казанских татар, // Тошкент Давлат Педагогика Унивеситети, Илмий Ахборотлари. Илмий-назарий журнал №3, Тошкент, 2015, с. 41-47.

17. Türklerin tarihen kullandıkları alfabelerin Ortak konuşma diline etkisi, I. Uluslararası Sosyal Bilimler Lisansüstü Öğrenci Kongresi, 24-25 Mart 2016, Bişkek.

18. "Heydər Əliyev və türk dünyası", // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların IV Beynəlxalq Elmi Konfransı, 29-30 aprel 2016, Bakı, s. 1357-1358.

19. Birinci Türkoloji Qurultayda türkdilli xalqlar üçün ədəbi dil məsələsi, Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri, XV beynəlxalq elmi-praktiki konfransın materialları, 02 may 2016, s. 205-208.

20. "Azərbaycanda əlifba mücadiləsi", // Ulu Öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" Beynəlxalq elmi konfrans, 3-5 may 2016, Bakı, Mütərcim, s. 5-7.

21. Türkdilli xalqların əlifba mübarizəsi-Orta Asiyada əlifba islahatları, III beynəlxalq türk dünyası araşdırmaları simpoziumu, 25-27 may 2016, Bakı, s. 157-160.

22. Türkdilli xalqlar arasında əlifba birliyinin təmin edilməsi konteksində əlifba mücadiləsi (Türkiyədə əlifba islahatları), "Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar", mövzusunda beynəlxalq konfrans, 14-15 noyabr 2016, Bakı, Elm və təhsil, s. 238-243.

23. Türk Dünyasında Ortak Konuşma dili Oluşturulmasında Alfabe ve İmla Sorunları, // Gazi Türkiyat-Türkoloji Araştırmaları Dergisi, 18 Bahar 2016, Ankara, s. 213-220.

24. Türk Dillerinde İmla Sorunları (Oğuz Grubu Türk Dillerinde Genel İmla Kuralları), // Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi (TEKE), Sayı: 5/4 2016, Erzurum s. 1676-1681.

E. A. Ibrahimov

Common spelling and alphabet problems in turkic language

SUMMARY

The dissertation consists of the Introduction, three chapters, the Conclusion and the appendix to it. The introductory part of the dissertation deals with the actuality of the theme, the object and subject of the research, its theoritical and practical importance, methods and sources, and main items put forward for the defense.

In the first chapter entitled “The Alphabetical Problem of the Turkic peoples in the Historical Aspect” the alphabets historically used in Turkic languages were analyzed. Besides it, the struggle for an alphabet in the independent Turkic Republics, its historical roots and achieved results were also extensively researched here.

The second chapter is entitled “Spelling Problem of Turkic languages”. The existing spelling appropriatenesses and defects in them, and the ways of solving these defects in Oghuz, Kypchaq and Karluq groups of Turkic languages are analysed in this chapter.

In the third chapter entitled “Alphabetical and Spelling Problems in the Formation of a Common Language of Communication among Turks” reflects the necessesity of common communication, the problems of the Turkish language which can be accepted as a common language of communication and the ways of their solution.

In the Conclusion all the basic scientific items of the dissertation are generalised.

Э. А. Ибрагимов

Проблемы общей орфографии и алфавита тюрков

РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, заключения, списка использованной литературы и приложения. Во введении к диссертации раскрывается актуальность темы, обьект и предмет исследования, научная новизна, теоретическая и практическая значимость работы, методы и источники, а также положения выдвигаемые на защиту.

В первой главе диссертации, которая называется “Проблема алфавита тюркских народов в историческом аспекте” рассматриваются алфавиты, используемые тюркскими народами на протяжении своей истории. Кроме того, в этой главе подробно исследуются темы борьбы за алфавит в независимых тюркских республиках, ее исторические корни и достигнутые на этом поприще результаты. Во второй главе диссертации, называющейся “Проблема орфографии (правописания) в тюркских языках”, раскрываются орфографические закономерности в огузской, кипчакской и карлукской группах тюркских языков, и пути устранения изъянов и недостатков, существующих в этих системах.

В третьей главе диссертации, называющейся “Проблемы орфографии и алфавита в формировании общетюркского языка общения”, подчеркивается важность формирования общетюркского языка общения, а также нашли свое отражение проблемы тюркского языка, который можно принять в качестве общего языка общения тюркских народов, и пути решения этих проблем.

В заключении к диссертации нашли свое отражение основные научные положения, к которым мы пришли в ходе исследования.

Kağız formatı: 60/84 16/1

Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ ЯЗЫКОЗНАНИЯ имени НАСИМИ

На правах рукописи

ЭЛЬЧИН АЛИ оглу ИБРАГИМОВ

ПРОБЛЕМЫ ОБЩЕЙ ОРФОГРАФИИ И АЛФАВИТА ТЮРКОВ

5710.01- Тюркские языки

А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по филологии

БАКУ-2017